Masallı "Konstitusiya və Suverenlik İli"ndə daha da yaşıllaşıb

Masallıda "Konstitusiya və Suverenlik İli" ilə əlaqədar növbəti ağacəkmə aksiyası keçirilib.

Rayon icra hakimiyyətinin təşkilatçılığı ilə Qızılağac kəndində keçirilən aksiya Azərbaycan Prezidenti İlham Əliyevin doğum gününə həsr olunmuşdu. RİH əməkdaşları, ərazi nümayəndələri, bələdiyyə sədrləri və kənd sakinlərinin iştirak etdikləri aksiyada müxtəlif növdən olan xeyli meyvə və dekorativ ağaclar, kollar əkilib.

"Azərbaycan"

Azərbaycan.- 2025.- 25 dekabr (№271).- S.7.